


"Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır". Bunu Azərbaycan Prezidenti İlham Əliyev ötən il noyabrın 11-də Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışında bəyan edib.

Dövlət başçısının bu fikri yaddaşımızı bir qədər təzələmək üçün sanki bir təkan oldu. Azərbaycanlıların daha kompakt yaşadığı Güney Azərbaycanını göz önünə gətirdik. Quzeydə hələ də yetərincə tanınmayan Güney barədə düşüncələrimizin fonunda onun ədəbiyyatını, nəsrini, poeziyasını, yazar soydaşlarımızın mücadiləsini ifadə edən nümunələri xatırladıq.

Qəzetimizdə "Güneydən səslər..." rubrikası altında Güney ədəbiyyatının, folklorunun, mədəniyyətinin, incəsənətinin ən gözəl nümunələri ilə oxucularımızı da tanış edirik.

## NADİR PAŞA



1959-cu ildə Qaradağ mahalının Mirzalı kəndində doğulub. Orta təhsilini Təbrizdə alıb. 1979-cu ildə Təbriz Universitetinin Fars dili və ədəbiyyatı fakültəsinə daxil olub. Universiteti bitirdikdən sonra, 1986-cı ildə əsgəri xidmətə çağırılıb və 2 il İran-İraq savaşında iştirak edib.

Nadir Paşa 1988-ci ildə döyüşlərin birində əsir düşüb. 26 ay Bağdad və Tikrit zindanlarında əsir qalandan sonra, azad olunub və vətənə qayıdıb. Bu olaylar onun həm cismində, həm də ruhunda dərin izlər buraxıb. Atası Aşıq Məşi (1931-2016) Cənubi Azərbaycanın adlı-sanlı ustad aşıqlarından biri olub.

Nadir Paşa sazlı-sözlü bir ailədə boy atdığı üçün uşaqlıq çağlarından musiqi və şeirə böyük maraq göstərib. İlk qoşmasını 14 yaşında yazıb. Onun bir sıra şeirləri 1979-cu ildən bəri İranda və Azərbaycan Respublikasında fərqli toplu və dərgilərdə çap olunub.

"Sevinirəm, yaşayıram" adlı ilk şeirlər kitabı 2016-cı ildə Təbrizdə işıq üzü görüb.

### ZƏFƏR NƏĞMƏSİ

Deyirdim bəs yalnız xatirələrdə,
Bir də nəğmələrdə qaldı Qarabağ.
Otuz qarlı-qışlı dağları aşıb,
Qolun boynumuza saldı Qarabağ…

Füzulinin ruhu sevindi bir də,
Ucaldı Şuşada Xanın xoş səsi.
Çaqqallar qaçdılar aslan önündən,
Yayıldı hər yana zəfər nəğməsi.

Sülhün keşiyində durmuşuq daim,
Barış carçısıyıq döyüşdən bezar.
Ancaq azğınlığa qol qoysa kimsə
Bu çöllər onlara olacaq məzar...

Yalnızca sarsıdan xatirələrdən,
Qəmli nəğmələrdən çıxdı Qarabağ.
Ucaldı göylərə cəngi-Koroğlu,
Hicran çəpərlərin yıxdı Qarabağ.

Zəfər bayrağını göylərə qaldır,
Qoçaqlar diyarı Can Azərbaycan
Sənin sarsılmayan türk oğulların,
Yolunda hər zaman keçəcək candan.

## ARAL QARADAĞLI (Məhəmməd Qaffari)



23 sentyabr 1986-cı ildə Qaradağ mahalının Vərziğan şəhərinin Doru kəndində doğulub. İlk və orta təhsilini Vərziğanda Şahid Cahannara məktəbində alan Məhəmməd Qaffari "Aral Qaradağlı" imzası ilə şeirlər yazır.

Aral Qaradağlı Şirin Asal şirkətində çalışır. Gənc qələm sahibi ardıcıl olaraq bədii yaradıcılıqla məşğul olur. Şeirlərində Quzey Azərbaycan, Bakı, Qarabağ mövzusu qabarıqdır...

### Həsrət qaldığım

Otuz il bahara həsrət qaldığım,
Bugünkü günümə təzə yaz gəlir,
Habilin əlində nurlu bir Kaman,
Ədalət qoynunda qara saz gəlir.

Ağrı ürəyimdən üzülən kimi,
Sevincim yollara düzülən kimi,
Dağların qoynundan süzülən kimi,
Tük olub gözümdən bir Araz gəlir.

Gün kimi saralıb batdığım kimi,
Gizli arzulara çatdığım kimi,
Körpə beşiyində yatdığım kimi,
Acılı günlərim mana naz gəlir.

Büllur bulaqlarım coşub çağlayır,
Ay Aral, könlümü yaman dağlayır,
Zəlimxan ah çəkir, Vaqif ağlayır,
Durulub Kür çayı, nə dayaz gəlir.

Esmira Fuad